**Sevda Fərəc qızı Musayeva**

**UOT: 338.1: 330.34: 334.764.47; JEL: P48; C38; L52.**

# Klaster mexanizmlərinin xüsusiyyətlərinin nəzəri-metodoloji məsələləri

***Xülasə***

*Tədqiqatın məqsədi – klaster mexanizmlərinin xüsusiyyətlərinin nəzəri-metodoloji məsələlərinin tədqiqindən ibarətdir. Bunun üçün klaster mexanizmlərinin xüsusiyyətləri araşdırılmış və ümumiləşdirilmişdir. Klaster mexanzimlərinin metodoloji yanaşmaları müəyyənləşdirilmiş və bunlarla bağlı meyarlar, fəaliyyət üsulları baxılmışdır. Dünya təcrübəsinə uyğun olaraq, klaster növlərinin xüsusiyyətləri verilmiş və təsnifatlaşdırılmışdır. Klaster iştirakçılarının əhatəsi müəyyənləşdirilmiş və fəaliyyət istiqamətləri açıqlanmışdır. Klaster mexanzimlərinin öyrənildiyi elmi sahələr və tədqiqat subyektlərinin əsas kəsişmə sahələri ümumiləşdirilmişdir. Müasir dövrün çağırışlarından yanaşmaqla, klaster mexanzimləri ilə bağlı nəzəri-metodoloji baxışlar formalaşdırılmışdır. Tədqiqatın metodologiyası – tədqiq olunan məsələlərə dair müxtəlif fikirlər və mülahizələr öyrənilmiş, nəzəri-metodoloji yanaşmalar təhlil olunmuş və ümumiləşdirilmişdir. Əsas etibarılə təhlil və sintez metodlarından daha çox istifadə olunmuşdur. Tədqiqatın tətbiqi əhəmiyyəti – alınmış elmi-praktiki nəticələrdən klaster mexanzimlərinin iqtisadi sistemə daxil edilməsində konseptual yanaşmaların formalaşmasında və dövlət siyasətinin təkmilləşdirilməsində, fəaliyyət strategiyasının hazırlanmasında istifadə oluna bilər. Tədqiqatın nəticələri – hazırkı qlobal təsirin yüksək olduğu şəraitdə və COVİD-19 pandemiyasının milli iqtisadiyyata mənfi təsirinin azaldılması proseslərində klaster mexanizmlərindən istifadə edilməsi əsaslandırımışdır. Tədqiqatın orijinallığı və elmi yeniliyi – məqalədə baxılan mühüm problemlərdən və onların nəzəri-metodoloji aspektlərindən yanaşmaqla, klaster mexanzimlərinin xüsusiyyətləri müəyyənləşdirilmiş və sistemləşdirilmişdir. İqtisadi prioritetlərdən və hədəflərdən asılı olaraq klaster mexanzimlərinin səmərəli bir vasitə kimi iqtisadiyyatın müxtəlif sahələrində istifadə olunması məsələləri əsaslandırılmışdır. Klaster mexanizmlərindən istifadə olunmasının başlıca aspektləri elmi arqumentlərlə verilmişdir.*

***Açar sözləri:*** *klaster mexanzimləri, klasterlər, klasterlərin xüsusiyyətləri, klaster mexanizmlərin nəzəri əsasları, klaster mexanizmlərinə metodoloji yanaşmalar, klasterlərdən istifadə məsələləri.*

## Giriş

Müasir qlobal dövrdə istehsal-təsərrüfat subyektlərinin əlaqələr və münasibətlər sistemi daim dəyişir və inkişaf edir. Bu gün ölkənin iqtisadi inkişafının uğuru həmişəkindən daha çox sənaye artımının bərpası ilə bağlı istehsal və iqtisadi siyasət mexanizmlərinin səmərəli şəkildə reallaşdırılmasından asılıdır və dünyanın bir çox ölkələri sənaye inqilabının 4.0 və sonrakı mərhələlərini keçməkdədirlər. Amma iqtisadi cəhətdən inkişaf etməkdə olan ölkələrdə bazar iqtisadiyyatı şəraitində daha münasib və təsirli mexanizmlərin axtarışı gedir. Bu kimi mexanizmlərin səmərəli şəkildə reallaşdırılması milli iqtisadiyyatın rəqabət qabiliyyətliliyinin artırılması baxımından əhəmiyyətlidir. Milli iqtisadiyyatın rəqabət qabiliyyətini qorumaq hər bir dövlətin əsas vəzifələrindən biridir. Müasir dünyada iqtisadi proseslər mikro və makro səviyyələrdə sabitliyi pozan amillərin təsiri altında gedir ki, bu da təsərrüfat subyektlərini dəyişən bazar şəraitinə uyğunlaşmaq və rəqabət qabiliyyətini qorumaq üçün biznesin təşkilinin yeni formalarını axtarmağa sövq edir. Hazırda bir çox ölkələr klaster inkişafı konsepsiyasına əsaslanaraq investisiya və innovasiya siyasətini, eləcə də regional iqtisadi siyasətlərini həyata keçirirlər ki, bunun da mahiyyəti coğrafi baxımdan yaxın təsərrüfat

*©Sevda Fərəc qızı Musayeva Sumqayıt Dövlət Universiteti, "Dünya iqtisadiyyatı və marketinq" kafedrası, dissertant. E-mail: sevda.musayeva83@gmail.com*
*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

subyektlərinin rəqabət üstünlüklərinin artırılmasıdır. Coğrafi cəhətdən yaxın olan belə təsərrüfat subyektlərinin rəqabət potensialı onların klaster daxilində bir-biri ilə səmərəli qarşılıqlı əlaqəsi, texnologiyalardan, innovasiyalardan, yüksək ixtisaslı kadrlardan, ixtisaslaşmış xidmətlərdən, infrastrukturdan və s. birgə istifadəsinə əsaslanır. İqtisadiyyatın klasterləşdirilməsi həm ümumilikdə milli iqtisadi inkişaf, həm də innovativ inkişafın stimullaşdırılması üçün mühüm alətə çevrilir. Bu gün milli iqtisadiyyatda klaster mexanizmlərinin formalaşması və inkişafı böyük maraq kəsb edir. İqtisadi inkişafın klaster modeli regionun inkişafının  səmərəli yolu kimi qiymətləndirilir. Bütün bunlar klaster mexanizmlərinin xüsusiyyətlərinin nəzəri və metodoloji məsələlərinin öyrənilməsini obyektiv zərurətə çevirir. Klaster dedikdə, müəyyən bir ərazidə fəaliyyət göstərən, bir-birini tamamlayan və ayrı-ayrı müəssisələrin rəqabət qabiliyyətini artıran, coğrafi baxımdan bir-birinə bağlı olan şirkətlər və əlaqəli təşkilatlar qrupu kimi başa düşür. Klasterləşmə yeni texnologiyaların inkişafı, sənayenin rəqabət qabiliyyətinin artırılması, ixracın keyfiyyətinin yüksəldilməsi, xarici investisiyaların cəlb edilməsi, yeni bazarlara çıxış, işsizliyin azaldılması, ixrac potensialının, təhsil və texnologiyanın artırılmasında, eləcə də davamlı inkişafda müəssisələrin dəstəklənməsinə yönəlib. Klaster daxilində oxşar sahədə çalışan sahibkarlar eyni klasterdə rəqabət aparır və birlikdə fəaliyyət göstərirlər [1, s.111].

**Dünya iqtisadi proseslərində klaster mexanizmlərinin xüsusiyyətlərinə nəzəri-metodoloji yanaşmaların formalaşması və inkişafı**

Klasteri təşkil edən müəssisələr nəinki bir-biri ilə rəqabət aparır, eyni zamanda müxtəlif problemlərin həlli yollarını tapmaq üçün birgə işləyirlər ki, bunlar arasında innovativ inkişafların yayılması və müvafiq ixtisasların hazırlanması zərurəti ilk növbədə dayanır. Klasterin fəaliyyəti nəticəsində regionun inkişafının davamlılığının artırılması imkanları nəzərdən keçirilir. Lakin bu vəzifə birbaşa klaster üzvlərinə həvalə edilmir. Klaster sərhədləri müasir elektron kommunikasiyalar və nəqliyyat infrastrukturunun inkişafı sayəsində genişlənməyə meyillidir. Lakin, iqtisadiyyatın klasterləşməsinin stimullaşdırılması daha çox regional səviyyədə aktualdır. Klaster üzvlərinin bir regionda yerləşməsi onlara problemləri tez və səmərəli müzakirə etməyə, həll yollarını tapmağa və müəyyən ərazidə hazırda ən rəqabətli olan və ya gələcəkdə sərfəli olacaq fəaliyyət istiqamətini müəyyən etməyə imkan verir.



Rəqabət qabiliyyətinin formalaşması və inkişafı ilə bağlı çoxlu müxtəlif nəzəriyyələr mövcuddur. Lakin, iqtisadi artımın ən təsirli nəzəriyyəsi klaster mexanizmi ilə bağlı nəzəriyyədir. İqtisadi ədəbiyyatda klaster texnoloji zəncirlə bağlanmış və sektorial yanaşmaya alternativ kimi çıxış edən ixtisaslaşmış təchizatçıların, əsas istehsalçıların və istehlakçıların şəbəkələrinin ərazi konsentrasiyası əsasında formalaşan sənaye kompleksi kimi müəyyən edilir. İstehsalın təşkilinin innovativ forması kimi iqtisadiyyatda klaster yanaşmasının yaradıcıları A.Marşall, M.Porter, M.Lorenz, S.Rezenfeld, M.Enrayt və başqa tədqiqatçılar hesab olunur [2, s.46]. Klasterlərin istehsal proseslərinin təşkili kimi başa düşülməsinin nəzəri əsaslarının mənşəyi Kembric məktəbinin banisi A.Marşallın tədqiqatıdır. A.Marşal 1890-cı ildə nəşr etdirdiyi "İqtisadiyyatın prinsipləri" əsərində coğrafi əraziləri tədqiq edərək müəssisələrin təmərküzləşməsi ilə səciyyələnən spesifik xüsusiyyətləri müəyyən etmiş və onları "sənaye sahələri" adlandırmışdır. Belə sahələrin özəlliyi ərazinin istehsal potensialının inkişafı üçün ümumi şəraitin formalaşmasında ifadə olunurdu. Bununla da iqtisadi fəaliyyətin lokallaşdırılması problemini ilk dəfə tədqiq edən A.Marşallın "İqtisadın prinsipləri" (1890–1891) adlı fundamental əsərində ayrı-ayrı bölgələrdə ixtisaslaşmış sənaye sahələrinin təmərküzləşməsinin tədqiqi çərçivəsində klaster iqtisadi təhlilin predmetinə çevrilmişdir. A.Marşall biznesin coğrafi təmərküzləşməsinin üstünlüklərini əmək bölgüsündən qənaət, texnologiyadan istifadədə səmərəliliyin artırılması, intellektual mühitin formalaşması, regionda köməkçi sənaye sahələrinin inkişafı, ixtisaslı işçi qüvvəsi üçün daimi bazarın

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

yaradılması, istehlakçılar üçün rahatlığın artırılması və s. istiqamətlərdə görürdü. Sonradan onun təsvir etdiyi istehsalın lokallaşdırılması forması olan "çox sayda kiçik bircinsli müəssisələrin bir ərazidə cəmlənməsi" "Marşall klasteri" və ya "Marşal sənaye sahəsi" adlandırılmışdır [3, s.263]. Lakin buna baxmayaraq, M.Porter klaster nəzəriyyəsinin banisi kimi tanınır. O, ilk dəfə olaraq klasterlər haqqında bilikləri sistemləşdirmiş, klasterləşmə əsasında dövlətlərin rəqabət qabiliyyətinin artırılması üzrə dünya təcrübəsini ümumiləşdirmişdir. Məhz M.Porter həm ayrı-ayrı təsərrüfat subyektlərinin, həm də bütövlükdə milli iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin təmin edilməsində klasterlərin aparıcı rolunu müəyyən etmiş, klasterlərin mahiyyətini dərindən açmış, onlarda hansı proseslərin baş verdiyini və onun fəaliyyət qabiliyyətinə necə təsir etdiyini təsvir etmişdir. O, müxtəlif ölkələrdə 100-dən çox sənayenin rəqabətli mövqelərini öyrənərək bu problemi tədqiq etmişdir. Klaster yanaşmasının banisi kimi M.Porter klasteri "müəyyən ərazidə fəaliyyət göstərən, ümumi fəaliyyətlə səciyyələnən və bir-birini tamamlayan coğrafi baxımdan bir-birinə bağlı olan şirkətlər və əlaqəli təşkilatlar qrupu" kimi müəyyən edir [4]. Verilmiş tərif klasterin iqtisadi-coğrafi vahid kimi mahiyyətini tam əks etdirir. Eyni zamanda, diqqət, bir qayda olaraq, klasterin təcrid olunmuş bir şey deyil, vahid sistemin bir hissəsi olduğuna yönəldilir. Burada güman etmək olar ki, əlaqə və qarşılıqlı asılılıq mövcuddur. Hazırda klasterlərin məhz bu tərifi klassik hesab olunur. M.Porterin klasterlər nəzəriyyəsi tez bir zamanda dünya miqyasında şöhrət qazandı və əvvəlcə ABŞ-da, sonra OECD (İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatı) ölkələrində rəqabət qabiliyyətinin gücləndirilməsi strategiyaları üçün konseptual əsas oldu və daha sonra Dünya Bankı tərəfindən bu nəzəriyyə kimi tövsiyə olundu. M.Porter hesab edir ki, ölkənin rəqabətqabiliyyətliliyinə onun ayrı-ayrı firmalarının deyil, klasterlərin - müxtəlif sənaye sahələrini əhatə edən assosiasiyaların beynəlxalq rəqabət qabiliyyəti prizmasından baxmaq lazımdır. O, həmçinin ölkələrin rəqabət üstünlüyünün müəyyənediciləri sistemini işləyib hazırladı. Bunlara daxildir:

- amil şərtləri: insan və təbii ehtiyatlar, elmi və informasiya potensialı, kapital, infrastruktur, o cümlədən. həyat keyfiyyəti amilləri;
- daxili tələbatın şərtləri: tələbatın keyfiyyəti, dünya bazarında tələbin inkişaf tendensiyalarına uyğunluğu, tələbin həcminin inkişafı;
- əlaqəli və xidmət sahələri (sənaye klasterləri): xammal və yarımfabrikatlarla təchizat sahələri, avadanlıqların təchizatı sahələri, xammaldan, avadanlıqdan, texnologiyalardan istifadə sahələri;
- firmaların strategiyası və strukturu, sahədaxili rəqabət: məqsədlər, strategiyalar, təşkili üsulları, firmaların idarə edilməsi, sahədaxili rəqabət.

M.Porterin təklif etdiyi yanaşmaya görə "klaster" termini müxtəlif sahələrdə və sənayelərdə tətbiq oluna bilər. Onun fikrincə, klaster rəqabətə üç yolla təsir edir:

- Klasterdəki müəssisələrin əmək məhsuldarlığının artırılması;
- İnnovasiyaların stimullaşdırılması;
- Yeni biznesin inkişafının stimullaşdırılması.

Klaster nəzəriyyəsinin yaradıcısı Maykl Porter vurğulayır ki, əməkdaşlıq, bir-birini tamamlayan şirkət qrupları, əlaqəli sənaye və institutlar qlobal bazarda milli və regional rəqabət qabiliyyətini artıra bilər [5]. O, öz metodologiyasında davamlı strategiyanın mövcudluğunu klasterin uğurlu inkişafı üçün ən mühüm amillərdən biri adlandırır. Eyni zamanda, perspektivli klasterlərin müəyyən edilməsi və onların inkişafının planlaşdırılması zamanı regional strategiyaların çərçivəsinin nəzərə alınmasını əsaslandırır. Müasir şəraitdə məsələ ondan ibarətdir ki, regional strategiyada müəyyən klasterin inkişaf etdirilməsi zərurəti qeyd edilsin, regionun biznes və inzibati elitaları arasında klasterin inkişafının zəruriliyi ilə



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

bağlı konsensus olsun. Hal-hazırda klaster dövlət sənaye siyasətinin və bütövlükdə iqtisadiyyatın inkişafına mühüm təsir göstərən ayrıca iqtisadi sistem, inteqrasiya olunmuş struktur kimi nəzərdən keçirilir. Buna uyğun olaraq elmi vəzifənin formalaşdırılması müasir iqtisadi nəzəriyyə və təcrübədə klasterlərin yerini və rolunu müəyyən etmək, təsnifatlaşdırmaq, klaster mexanizmlərinin xüsusiyyətlərini müəyyənləşdirmək lazımdır. Dünyanın aparıcı ölkələrinin iqtisadiyyatlarının əksəriyyəti klaster mexanizmlərinin formalaşması prosesləri ilə əhatə olunub. Son iyirmi ildə klasterin formalaşdırılması dünyanın bir çox ölkələrində regional inkişaf sahəsində dövlət siyasətinin mühüm tərkib hissəsinə çevrilib. Ərazinin inkişafının idarə edilməsi ilə bağlı klaster yanaşmasından istifadənin xarici təcrübəsi çox müxtəlifdir. Bazar iqtisadiyyatına malik inkişaf etmiş və inkişaf etməkdə olan ölkələrdə klasterlərin yaradılması və fəaliyyət göstərməsi üçün vahid ümumi qəbul edilmiş yanaşma və sxemlər mövcud deyil. Hər bir dövlət klasterlərin formalaşması və onların idarə edilməsinə öz yanaşmalarını işləyib hazırlayır və ərazinin rəqabətqabiliyyətliliyi üçün milli sənaye strategiyasının həyata keçirilməsinə cavabdeh olan dövlət orqanlarının fəaliyyətini özünəməxsus şəkildə təşkil edir.

Klaster mexanizmləri dünyanın bir çox ölkələrində, eləcə də onların regionlarında iqtisadi siyasətin həyata keçirilməsində tətbiq tapmışdır. Klaster siyasəti dövlət iqtisadiyyatının mühüm tərkib hissəsidir. Finlandiya, Almaniya, Yaponiya, Çin və s. kimi inkişaf etmiş ölkələrdə bəzi sənaye sahələrində (tikinti, maşınqayırma və ya meşə təsərrüfatı) artıq klasterlər inkişaf etmişdir ki, bunlar da kifayət qədər uğurla fəaliyyət göstərir [6, s.1]. Klasterin klassik nümunəsi ABŞ-ın Kaliforniya ştatında demək olar ki, tamamilə qurulmuş yüksək texnologiyalı təşkilatlar kompleksi olan "Silikon Vadisi"dir. Burada şirkətlər kompüter, elektron, informasiya və biotexnologiya sahələrində ixtisaslaşmışdır. ABŞ klasterlərin inkişafına böyük əhəmiyyət verir və bu sahədə mövcud maneələrin aradan qaldırılması üçün tədbirlər görür. Burada klasterlər ölkənin ayrı-ayrı ştatlarının maliyyə resursları hesabına yaradılır. ABŞ-da klasterlərdə istehsal olunan məhsullar əsasən ixracyönümlüdür. Ölkədə klasterlərin səmərəli fəaliyyətini şərtləndirən əsas amillərdən biri yüksək ixtisaslı işçi qüvvəsinin olması və bu baxımdan peşəkar kadrların hazırlanmasına önəm verilməsidir. Klaster müəssisələri əsasən bir regionda cəmləşib və bu regionun təbii sərvətlərindən, eləcə də insan resurslarından məhsuldar şəkildə istifadə olunur [7, s.106].



Qeyd edək ki, klasterlər istənilən dövlətin iqtisadi siyasəti üçün kifayət qədər effektiv vasitədir. İnkişaf etmiş iqtisadiyyatın mövcud olduğu şəraitdə belə onların yaradılmasına ehtiyac var ki, bu da məhsuldarlığın artımını təmin etməklə bağlıdır. Bu, regionların rəqabət qabiliyyətini artırmaq üçün iqtisadi inkişafın, məhsullarda, xidmətlərdə və istehsal üsullarında innovasiyaların vacibliyini müəyyən edir. İnkişaf etmiş ölkələrin dünya təcrübəsi müxtəlif növ klasterlərin yaranmasının həm səmərəliliyini, həm də qaçılmaz qanunauyğunluğunu inandırıcı şəkildə sübut edir. Xaricdə klasterlər hazırda kiçik və orta sahibkarlığın inkişafı üçün ən təsirli vasitələrdən biridir. Son onilliklərdə klaster fəaliyyətləri müxtəlif ölkələrdə iqtisadçıların və hökumət orqanlarının artan marağına səbəb olmuşdur. Texnologiyaların, logistikanın, nəqliyyat vasitələrinin sürətli inkişafı ona gətirib çıxardı ki, məlumatların ötürülməsi, maliyyə axınlarının hərəkəti demək olar ki, ani xarakter alıb, malların daşınması ucuz və sürətlidir. Bu baxımdan, rəqiblər üzərində üstünlüyün əldə edilməsi və saxlanılmasının ən mühüm amilləri təkcə innovasiya və təhsil deyil, həm də şəbəkə strukturlarının - klasterlərin yaradılmasına şərait yaradan müəssisələr arasında əlaqələrdir. İqtisadiyyatın klasterləşdirilməsi üzrə xarici təcrübənin təhlili göstərdi ki, müasir şəraitdə dünyanın əksər ölkələrinin iqtisadiyyatlarının inkişaf perspektivlərinin müzakirəsi zamanı "klaster" termini ən populyar terminlərdən biridir. Hal-hazırda "klaster" termini ilə bağlı birmənalı anlayış yoxdur və istifadə olunan təriflər inkişaf etdikcə təkmilləşdirilir.

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

Klasterlərin müasir nəzəri tədqiqatları, onların milli iqtisadiyyatlarda geniş tətbiqi, regional iqtisadiyyatın inkişafına təsiri onların ayrıca elmi istiqamət kimi inkişaf etdiyini göstərir. Klaster mexanizmində tədqiqat predmetinin əsas komponentləri bunlardır:

- Klasterlərin fərqləndirici xüsusiyyətləri və tipologiyası.
- Klasterlərin təsiri.
- Klasterlərin yaranmasına və inkişafına şərait yaradan amillər.
- Klasterlərin müəyyən edilməsi.
- Klasterin formalaşması mexanizmləri.
- Klaster siyasəti və klasterin idarə edilməsi.
- Klasterlərin və klaster siyasətinin effektivliyinin qiymətləndirilməsi.

Bir sıra tədqiqatçıların qeyd etdiyi kimi, innovasiya komponenti innovasiya klasterlərinin formalaşmasına səbəb olub. Məhz innovasiyaların yaradılması və həyata keçirilməsi baxımından dünyanın müxtəlif ölkələrində əksər klasterlər fəaliyyət göstərir. Klasterlərin xarakterik xüsusiyyəti onların şəbəkə təşkilidir. Klaster üzvləri koordinasiya olunmuş məqsədlə birləşən müxtəlif müəssisə və təşkilatların zəncirini təmsil edir. Klaster üzvləri adətən istehsal müəssisələri, təchizatçılar, logistika təşkilatları, tədqiqat institutları və ya digər elmi təşkilatlar, müxtəlif səviyyələrdə səlahiyyətli orqanlar, inkişaf institutları və ya özəl investorlar olurlar [8]. Ümumilikdə, istehsal müəssisələrinin tərkibinin də özünəməxsus xüsusiyyətləri var, yəni: klasterin ən azı bir istehsal zəncirinə qoşulan müəssisələr şəbəkəsi olmalıdır. Şəbəkə təşkilatının əsas xüsusiyyəti bütün iştirakçıların şaquli əlaqəsi, yəni könüllülük prinsiplərinə əsaslanan münasibətdir.

**Klaster mexanizmlərinin hazırlanması və tətbiqi proselərinin müasir xüsusiyyətləri və meylləri**

Klasterlərin formalaşması, onların mühüm mexanizmlərinin hazırlanması üzrə dünya təcrübəsindən yanaşdıqda, nəzəriyyə və təcrübədə klaster kateqoriyasının vahid tərifinin və formalaşmasına ümumi yanaşmaların olmamasına baxmayaraq, bir sıra nəzəriyyəçilər və tədqiqatçılar onların əsas xüsusiyyətlərini müəyyən etməkdə həmrəydirlər və bunlara aşağıdakıları daxil etmək olar:

- klaster üzvlərinin coğrafi yaxınlığı;
- klaster müxtəlif sənaye müəssisələri, elmi təşkilatlarla əhatə olunurlar;
- klasterə daxil olan təşkilatların faktiki qarşılıqlı asılılığı ilə hüquqi baxımdan müstəqilliyi;
- innovativ və ya modernləşdirilmiş məhsulların yaradılması üçün klaster üzvlərinin çoxşaxəli qarşılıqlı əlaqəsi;
- məhsul və ya xidmətlər satan iştirakçıların olması.

Bunlardan başqa, fəaliyyət məqsədlərindən və səmərəlilik nöqteyi-nəzərindən klaster mexanizmi bir sıra mühüm ümumi xüsusiyyətlərə malikdir: bütün iqtisadi sistemdə uzunmüddətli iqtisadi, innovativ və digər strategiyaları müəyyən edən aparıcı müəssisənin olması; klasterin iştirakçıları olan əsas təsərrüfat subyektlərinin ərazi lokallaşdırılması; klaster çərçivəsində strateji iqtisadi əlaqələrin sabitliyi; milli və regional inkişaf proqramları, investisiya layihələri, innovasiya prosesləri çərçivəsində klaster üzvlərinin uzunmüddətli qarşılıqlı fəaliyyətinin əlaqələndirilməsi və s [9, s.99 ]. Eyni zamanda, bazar iqtisadiyyatı subyektlərinin, o cümlədən aparıcı şirkətlərin klasterdə cəmləşməsi həm iştirakçı müəssisələrin özləri, həm də ərazi üçün bir sıra müsbət amillərlə müşayiət olunur və bunlara növbətilər aiddirlər: klasterə və bütün əraziyə daxil olan müəssisələrin rəqabət qabiliyyətinin artırılması; sinergetik effektin təmin edilməsi, təchizatçılara, əlaqəli sənayelərə, iqtisadi agentlərə və ümumiyyətlə ətraf mühitə müsbət təsirin yayılması; biznesin və istehsal



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

prosesinin təşkili ilə bağlı müxtəlif növ xərclərin azaldılması; istehsal fəaliyyətinin həyata keçirilməsi prosesində resursların və vəsaitlərin təmərküzləşməsinin təmin edilməsi; innovativ məhsulların, xidmətlərin, idarəetmə üsullarının birgə istifadəsinin təmin edilməsi; bütün iştirakçıların qarşılıqlı faydalı əməkdaşlığının təmin edilməsi; regionlararası və sektorlararası inteqrasiyanın təşviqi. Bir çox ölkələrdə klaster yanaşması həm sektorial inkişafda, həm də ərazi inkişafında tətbiq olunmağa başlamışdır. Bu da öz növbəsində müxtəlif klasterlərin formalaşmasına kömək etmişdir. Ən çox inkişaf etmiş klaster növləri aşağıdakılardır: innovativ, sənaye, nəqliyyat, turizm və s. (cədvəl 1).

**Cədvəl 1.**

**Klasterlərin tipologiyası**

| Klaster növləri | Xüsusiyyətləri |
|---|---|
| İnnovativ | İnnovasiyaların istehsalata tətbiqi; yüksək texnologiyalardan istifadə |
| Sənaye | Müxtəlif növ sənaye məhsullarının istehsalının tam dövrünün təmin edilməsi |
| Turist | Turizm sahəsində geniş spektrli xidmətlərin göstərilməsi |
| Maarifləndirici | Geniş spektrli təhsil xidmətlərinin göstərilməsi |
| Nəqliyyat və logistika | Logistika, yük və sərnişin daşımaları sahəsində xidmətlərin göstərilməsi |
| Ekoloji | İstehsalda ekoloji cəhətdən təmiz texnologiyalardan istifadə |

Cədvəl müəllif tərəfindən tərtib olunub



Klasterlərin fəaliyyət mexanizmi təkcə onların struktur hissələri arasında qarşılıqlı əlaqələrin mahiyyətini anlamağa deyil, həm də onların inkişaf aspektlərini əks etdirməyə, yeni komponentlərin və müvafiq olaraq yeni interaktiv birləşmələrin formalaşmasını nəzərdə tutmağa imkan verir. Klasterlərin mövcudluğu və fəaliyyətinin ən mühüm məqsədi subyektlərin və bütövlükdə dövlətin rəqabət qabiliyyətini artırmaq və nəticədə insanların ümumi həyat səviyyəsini yüksəltməkdir. Aşağıdakı bazar subyektləri sənaye klasterinin iştirakçıları kimi çıxış edə bilər (şəkil 1).

**Şəkil 1.**

**Müasir klaster iştirakçılarının təxmini sxemi**




Şəkil müəllif tərəfindən tərtib olunub.

Klasterdə işləmək təşkilatlara aşağıdakı biznes elementlərindən ümumi istifadə yolu ilə məhsuldarlığını və səmərəliliyini artırmağa imkan verir: istehsal amilləri, informasiya, texnologiya, institutlar, əlaqəli təşkilatlarla koordinasiya. Klaster işçi qüvvəsinin yerdəyişməsi risklərini azaltmağa imkan verir və bununla da digər regionlardan daha çox ixtisaslı işçiləri

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

cəlb etməyə imkan verir ki, bu da bir sıra sənaye sahələrində böyük üstünlükdür. Klasterlər həm də xammal, mal və xidmət tədarükçüləri ilə yerli sistemlərin inkişafına töhfə verir ki, bu da əməliyyat xərclərini, ehtiyatları, çatdırılmama risklərini azaltmağa və s. imkan verir [10, s.84] Klaster mexanizmi iqtisad elminin bir sıra sahələrinin sintezidir. O, makro, mezo, mikro, institusional və regional iqtisadiyyat, strateji və innovativ idarəetmə, marketinq və iqtisad elminin digər sahələrinin müddəalarına əsaslanır [11, s.131]. Cədvəl 2-də klaster mexanizmi ilə iqtisadiyyatın digər sahələri arasında əlaqə göstərilir.

**Cədvəl 2.**

**Klaster mexanizmi ilə iqtisad elminin digər sahələri arasında əlaqə**

| Klaster mexanizminin əsaslandığı iqtisadi elm sahələri | Tədqiqat subyektlərinin əsas kəsişmə sahələri |
|---|---|
| Makroiqtisadiyyat | - iqtisadi artım amilləri;<br>- iqtisadi proseslərin dövlət tənzimlənməsi. |
| Mikroiqtisadiyyat | - iqtisadi subyektlərin davranışı və onu müəyyən edən amillər;<br>- bazar strukturu;<br>- təşkilatlar arasında rəqabət;<br>- təşkilatın xərcləri. |
| Mezoiqtisadiyyat | - sənayelərarası əlaqələr. |
| İnstitusional iqtisadiyyat | - iqtisadi agentlərin davranışını müəyyən edən institutlar. |
| Regional iqtisadiyyat | - məhsuldar qüvvələrin regionlarda yerləşdirilməsi;<br>- regional sosial-iqtisadi siyasət. |
| Strateji idarəetmə | - təşkilatın ətraf mühitlə qarşılıqlı əlaqəsi;<br>- təşkilatların inteqrasiya formaları. |
| İnnovasiyaların idarə edilməsi | - innovasiya prosesi;<br>- təşkilatların innovativ davranışı. |
| Marketinq | - dəyər zəncirləri;<br>- malların və firmaların rəqabət qabiliyyəti. |

Cədvəl müəllif tərəfindən tərtib olunub.

Qeyd edək ki, klaster mexanizmi makroiqtisadiyyatda tədqiqat predmeti olan iqtisadi artım amilləri haqqında müasir təsəvvürlərə əsaslanır. Klaster mexanizmində təbii, maddi və insan resursları kimi iqtisadi artımın ənənəvi amillərinin əhəmiyyətini vurğulayaraq, postsənaye iqtisadiyyatı üçün xarakterik olan artım amillərinə - innovasiyalara, istehsal, emal və istehsal qabiliyyətinə xüsusi diqqət yetirilir. İqtisadi proseslərin dövlət tənzimlənməsi üsulları sahəsində klasterlər mexaniminin makroiqtisadiyyatla kəsişməsi aydın şəkildə müşahidə olunur. Klaster tədqiqatçıları daim hakimiyyət orqanları tərəfindən klasterlərin formalaşmasını və inkişafını təmin etməyə qadir olan ən effektiv tənzimləyiciləri axtarırlar. Klasterlər əsasən sektorlararası struktura malik olduğundan, yəni onların tərkibinə müxtəlif sənaye sahələrini təmsil edən təşkilatlar daxil olduğundan, klasterlər nəzəriyyəsində sektorlararası əlaqələr təhlil edilir ki, bu da mezoiqtisadiyyatda tədqiqat obyektidir.

Azərbaycanda da klasterlərin tətbiqinə yanaşmalar formalaşmaqdadır və bir sıra iqtisadiyyat sahələrində bu baxımdan böyük potensial vardır. Məsələn, professor T.N. Əliyev bildirir ki, kimya sənayesinin alt sahələri öz texnoloji xüsusiyyətləri ilə fərqlənir və orada istehsal edilən məhsulların xammal bazası və istehlakçıları da müxtəlifdir. Əslində həmin alt sahələrdə texnoloji tsikl aparılır və son istehlak buraxılır. Onların məhsul satışı bazarları da spesifik xüsusiyyətə malikdir. Həmin müəssisələrdə elmi tədqiqatların nəticələri daha tez tətbiq edilir, çeşid siyasəti tələbata uyğun formalaşdırılır, lokal innovasiya layihələrinin qısa müddətdə tətbiqinə münbit şəraitin yaradılması mümkündür. Bütün bu amillər göstərir ki, Azərbaycanda plastik kütlə, lak-boya, əczaçılıq və rezin məmulatları istehsal edən sferaların bazasında klasterlərin yaradılması yüksək sosial-iqtisadi səmərə verə bilər [12, s.430].



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

**Nəticə**

Ümumilikdə, klaster mexanizminin təhlilinin bu metodologiyası nəticəsində ərazidə mövcud olan klasterlərin əsas statistik xüsusiyyətləri kimi onların tərkibi, strukturu və inkişaf səviyyəsi müəyyən edilir. Müəyyən bir ərazidə inkişaf etdirilə bilən klasterlər, habelə bunun üçün hansı hərəkətlərə və resurslara ehtiyac olduğu müəyyən edilir. Bu metodologiyanın təcrübədə tətbiqi prosesində klasterlər ərazinin inkişafı üçün prioritetlik dərəcəsinə görə sıralanır, eyni zamanda aşağıdakı səmərəlilik meyarları müəyyən edilir: ən böyük ixrac dəyəri; bir-biri ilə əlaqəli biznesin inkişafı üçün ən böyük imkanlar; çox sayda işçi; əhəmiyyətli istehsal həcmi; ən çox daxili əlaqələr. Beləliklə, klaster mexanizmlərinin xüsusiyyətlərinin nəzəri-metodoloji cəhətdən əsaslandırılması təkcə nəzəri tədqiqatlar üçün deyil, həm də müəssisələrin inkişafına təsir göstərən bir çox dövlət normativ aktlarında, fərmanlarda və metodiki tövsiyələrdə təcrübi tətbiq üçün zəruridir. Beləliklə, klaster mexanizmlərinin inkişafı həm elmi tədqiqatlar, həm də ölkədə dövlət sənaye siyasətinin tədbirlərinin təcrübədə əsaslandırılması üçün aktual və zəruridir.

**Ədəbiyyat**


1. Zeynallı L., Zeynallı A. Klaster fəaliyyətinin insan kapitalina və rəqabət qabiliyyətinə təsiri. İpək Yolu, 2019, №.3, s.104-115.
2. Мамонтова С. В., Панарина Е.А. Современная экономическая политика и механизмы регулирования в области функционирования промышленных кластеров // Известия Юго-Западного государственного университета. Серия: Экономика. Социология. Менеджмент, 2019, т.9, № 4(33), с.46-55.
3. Шейкин Д.А. От теории кластеров к теории кластерного развития регионов: эволюция и проблематика // Креативная экономика, 2016, т.10, № 11, с.1263-1272.
4. Klaster əsasında regional inkişaf. 19.06.2017. http://edf.az/uploads/documents/rovshan-agayev_klasterler-dunya-tecrubesi.pdf.
5. Теоретические основы формирования кластеров. articlekz.com/article/5988].
6. Кусков А.А. Зарубежный опыт объединения в кластер // Studium, 2017, № 1(42), с.1-6.
7. Musayeva S.F. Azərbaycanda klaster institutunun təşkilini şərtləndirən amillər və onun iqtisadiyyatın inkişafına multiplikativ təsiri. AMEA-nın Xəbərləri. İqtisadiyyat seriyası 2020 (noyabr-dekabr), s.105-113.
8. Əliyev, Ş.T. Azərbaycan iqtisadiyyatı. Sumqayıt, 2018. - 376 s.].
9. Əhmədova T.V. Klaster yanaşmasının metodoloji aspektləri. Audit 1 (2020), cild 27, s. 94-103.
10. Какава Л.О., Унанов Г.Г. Роль кластеров в формировании конкурентоспособности современных производственных структур // Известия Санкт-Петербургского государственного экономического университета, 2017, № 1-2(103), с.83-86.
11. Силич О. А. Теория кластеров как современное направление экономической науки // Дни науки-2016: Сборник трудов VII всероссийской научно-практической конференции с международным участием, посвященной 60-летию Сибирского университета потребительской кооперации, Новосибирск, 14–18 марта 2016 года. – Новосибирск: Сибирский университет потребительской кооперации, 2016, с.129-132.
12. Əliyev, T.N. Klasterlər: beynəlxalq təcrübə və innovativ inkişaf. Monoqrafiya. Bakı, “Elm və Bilik”, 2019, 536 s.




© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

***Севда Фарадж гызы Мусаева***
***диссертант***
***СумгаитскогоГосударственного Университета***
***E-mail: sevda.musayeva83@gmail.com***

***Теоретико-методологические вопросы особенностей механизмов кластера***

***Резюме***

*Цель исследования – формирование теоретико-методологических подходов к определению особенностей механизмов кластера и раскрытие их сущности. Исследованы и обобщены важнейшие элементы механизмов кластера в нынешних условиях. Рассмотрены критерии и способы деятельности, определены методологические подходы к механизмам кластера. Даны особенности и классифицированы разные виды кластера в контексте мирового опыта. Определён круг участников кластера и направления их деятельности. Обобщена сфера науки и важнейшие направления субъектов исследования по обоснованию механизмов кластера. Сформированы теоретико-методологические подходы к механизмам кластера в соответствии с современными вызовами. Методология исследования – учтены разные взгляды и предположения по проблемам разработки механизмов кластера, анализированы и определены теоретико-методологические подходы. Применены методы анализа и синтеза, сравнения и обобщения. В качестве методологической основы рассмотрены труды ряда ученых и исследователей мира, которые исследовали проблемы кластерных преобразований. Практическая значимость исследования – полученные научные результаты могли бы стать полезным материалом в подготовке научных лекций, при разработке практичных комплексных мероприятий и стратегий по развитию кластерного института и совершенствованию государственной политики в данной сфере. Результаты исследования – обоснованы и разработаны механизмы кластера, который может стать полезным экономическим инструментом для уменьшения негативных последствий пандемии COVID-19 и глобальных воздействий на развитие национальной экономики. Оригинальность и научная новизна исследования – на основе подробного изучения теоретико-методологических аспектов определены и систематизированы особенности механизмов кластера в нынешних условиях. Обоснованы вопросы эффективного использования механизмов кластера в качестве продуктивного средства в разных сферах экономики в контексте экономических приоритетов и целей. Научно аргументированы важнейшие аспекты практичного использования механизмов кластера в современных условиях.*

***Ключевые слова:*** *механизмы кластера, кластеры, особенности кластеров, теоретические основы механизмов кластера, методологические подходы к механизмам кластера, вопросы использования кластеров.*



*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

***Sevda Faraj Musaev***
***doctoral student of Sumgait State University***
***E-mail: sevda.musayeva83@gmail.com***

***Theoretical and methodological issues of cluster mechanisms***

***Summary***

*Purpose of the research – formation of theoretical and methodological approaches to determining peculiarities of cluster mechanisms and disclosure of their essence. The most important elements of cluster mechanisms in the current conditions are investigated. Criteria and methods of activity are considered, methodological approaches to cluster mechanisms are defined. Features and classification of different types of cluster in the context of world experience are given. The circle of cluster members and their areas of activity is determined. The sphere of science and the most important directions of research subjects on substantiation of cluster mechanisms are summarized. Theoretical and methodological approaches to cluster mechanisms are considered in accordance with modern challenges. Research methodology - different views and assumptions on the problems of developing cluster mechanisms are taken into account, theoretical and methodological approaches are analyzed. Methods of analysis and synthesis, comparison and generalization are used. As a methodological basis, the works of a number of scientists and researchers of the world who studied the problems of cluster transformations are considered.The practical importance of a research - the obtained scientific results could become a useful material in the preparation of scientific lectures, in the development of practical integrated measures and strategies for the development of a cluster institute and the improvement of public policy in this area.The results of the study - the mechanisms of the cluster are justified, which can become a useful economic tool for reducing the negative consequences of the COVID-19 pandemic and global impacts on the development of the national economy.Originality and scientific novelty of the research - on the basis of a detailed study of theoretical and methodological aspects, the features of cluster mechanisms in the current conditions systematized. The issues of effective use of cluster mechanisms as a productive tool in various areas of the economy in the context of economic priorities and goals are justified. The most important aspects of practical use of cluster mechanisms in modern conditions are scientifically argued.*

***Keywords:*** *cluster mechanisms, clusters, cluster features, theoretical foundations of cluster mechanisms, methodological approaches to cluster mechanisms, cluster issues.*

***Elmi redaktor: i.f.d., dos. Y.Məmmədov***
***Daxil olub: 28.09.2021.***
***Çapa qəbul olunub: 07.10.2021.***



*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*